Yeni kitablar

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda Nəzakət Məmmədlinin kitablarının təqdimatı olub. Nəzakət Məmmədli həm rəhbərlik etdiyi Respublika Xatirə Kitabı Redaksiyasında, həm təsisçisi və baş redaktoru olduğu "Yada düşdü" jurnalında gördüyü əzəmətli işlərlə, həm də poetik yaradıcılığı ilə Vətənə xidmət etmək missiyasını layiqincə yerinə yetirir.**




# Zərif duyğuların şeiriyyəti



Şeirləri dövri mətbuatda davamlı yayımlanan istedadlı şair-publisistin 2002-ci ildən bəri 10-a qədər şeir kitabı, o cümlədən "Ömrüm", "Ömrün qatarı" adlanan poeziya toplusu Azərbaycanda nəşr olunub. Nəzakət xanım həm də "Vətən daşı", yaxud 44 günlük dastanı" adlı film-layihənin, irihəcmli poemaların müəllifidir.

Bu sıraya "Xatirə kitabı: 44 gün – tarixi Zəfər" çoxcildliyi, "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" seriyasından bir neçə kitab da aiddir. Bəxtinə fədakarlıq etmək düşən xanım şairin bu barədə misraları düşündürücüdür:

***Qəfildən başlayır sonun əvvəli,***
***Qaytarmaq olmayır bitəndə vaxtı.***
***Göylərin hökmüylə, sehirli əllə***
***Hər kəsin alnına yazılır baxtı.***

Onun haqqında Türkiyə mətbuatında da maraqlı məqalələr yazılıb. 2014-cü ildə qardaş ölkədə şairin şeir və məqalələrdən ibarət "Saralmış yarpağa bənzəyir ömrüm" kitabı işıq üzü görüb. İnişil isə İstanbulda İmdat Avşarın çevirməsində "Yurd həsrəti" adlı şeirlər toplusu Türkiyə türkcəsi ilə nəşr edilib.

Nəzakət Məmmədlinin həm bu, həm də Bakıdakı "Zərdabi Nəşr" MMC-də yenicə çapdan çıxmış "Köhnəlməyən xiffət" şeirlər kitabı oxuculara təqdim olundu. Məclisi açan "Qobustan" incəsənət dərgisinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, yazıçı Pərvin Nurəliyeva müəllifin yaradıcılıq məziyyətlərindən ətraflı bəhs etdi. Onun vətənpərvərlik şeirlərini incələdi.

***Dalğalanır arzuların bayrağı,***
***Hər təbəssüm bir ümidin yarpağı.***
***Zəfər ətri bürüyübdür torpağı,***
***Qarabağa bahar gəlir, İlahi!***

AYB-nin katibi, yazıçı Elçin Hüseynbəyli, Azərbaycan ədəbiyyatının Türkiyədə yorulmaz təbliğatçısı, şair-tərcüməçi İmdat Afşar, Xalq yazıçısı Elmira Axundova, filologiya elmləri doktoru, professor Maarifə Hacıyeva, "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Türkiyəli yazar – "Türk ədəbiyyatı" dərgisinin əməkdaşı Səadət Örməci, Əməkdar jurnalist Zemfira Məhərrəmli, tənqidçi-publisist Hikmət Məlikzadə, şair Adilə Nəzər və başqaları ürək sözlərini söylədilər.

Xüsusi vurğulandı ki, 3 hərbçi övladı olan Nəzakət xanımın yaradıcılığından vətənpərvərlik mövzusu qırmızı xətlə keçir. "Yurd həsrəti"nin tərtibçisi və ön söz müəllifi İmdat Avşar N.Məmmədlinin ədəbi-bədii yaradıcılığından, onun poetik düşüncələrindən və ictimai fəaliyyətindən söz açarkən dedi: "Nəzakət Məmmədli duyğuları Vətən torpağı, yurd və millət sevgisi ilə yoğrulmuş, könlünün zirvələrində hər zaman üçrəngli Azərbaycan bayrağını dalğalandıran şairdir".

"Köhnəlməyən xiffət" kitabı da təkcə poetik duyğular toplusu deyil, həm də milli yaddaşın poetik forması kimi təqdir edildi. Şahanə Müşfiq demişkən, 3 hərbçi övlad anasının bu şeirlərini oxumaq bir şairin şeir dünyasına qonaq olmaqla bərabər, həm də xalqın yaşadığı tarixi, çəkdiyi ağrını, qazandığı zəfəri, insan ömrünün heç bitməyən, köhnəlməyən xiffətini hiss etməkdir. Zaman keçir, illər dəyişir, amma Vətən sevgisi, şəhid xatirəsi və anaların duası hər zaman yenidir.

***Ağlama, şəhid qızı,***
***Dərdin mənə tanışdı.***
***Ürəyim param-parça,***
***Qəmim naxış-naxışdı.***

Şair xanım nikbinliyini də itirmir, ona görə də belə deyir:

***Gəl, şair könlümü qarış-qarış gəz,***
***Gör, necə çağlayır sinəmdə həvəs.***
***Küləklər odumu söndürə bilməz,***
***Misra-misra yanan közüm var mənim.***

Təqdimat mərasiminə qatılan qələmdaşları, duyğu ortaqları, ruh əkizləri ixtisasca psixoloq olan incə ruhlu gözəl şairin, xoşsima xanımın iç dünyasına vardıqca sanki onu yenidən tanıdılar, səslənən şeirlərinin qanadlarında ənginliklərə baş vurdular.

***Ə.NƏCƏFXANLI***
***XQ***